BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Ermənistan–Fransa hərbi–siyasi tərəfdaşlığı və bu tərəfdaşlığın Cənubi Qafqazın təhlükəsizlik mühitinə təsirləri


Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


APREL 2024

## Ermənistan–Fransa hərbi–siyasi tərəfdaşlığı və bu tərəfdaşlığın Cənubi Qafqazın təhlükəsizlik mühitinə təsirləri

Region dövlətlərinin xarici siyasət strategiyaları və dünyanın bir sıra güc mərkəzlərinin bölgə ilə bağlı siyasətləri, toqquşan maraqları Cənubi Qafqazın təhlükəsizlik mühitinə təsir edən əsas amillərdən hesab edilə bilər. Bu baxımdan, deyə bilərik ki, Ermənistanın xarici siyasətində baş verən dəyişikliklər, Fransanın Cənubi Qafqaz siyasəti, rəsmi İrəvanla münasibətləri regionun təhlükəsizlik sisteminə əhəmiyyətli dərəcədə təsir edir. Xüsusilə, İkinci Qarabağ Müharibəsindən sonra iki ölkə arasında hərbi – siyasi sahədə tərəfdaşlıq münasibətlərinin dərinləşməsi müşahidə edilir və bu proses regionun təhlükəsizlik mühitinə neqativ dinamika gətirməkdədir.

Ermənistan – Fransa hərbi əlaqələri İkinci Qarabağ Müharibəsindən əvvəl də mövcud olsa da bu əlaqələr məhdud xarakter daşımaqla o qədər də əhəmiyyətli olmamışdır. Məsələn, 2010 – cu il fevralın 10 – da iki ölkənin müdafiə nazirlikləri arasında müdafiə sahəsində əməkdaşlıqla bağlı imzalanan saziş[1] özündə dərin hərbi əməkdaşlığı və yaxud, silah satışını ehtiva etməmişdir. İkinci Qarabağ Müharibəsindən sonra Fransa – Ermənistan siyasi əlaqələrində baş verən yaxınlaşma iki ölkənin hərbi əlaqələrinə də proyeksiya etmişdir. Qeyd edək ki, Ermənistan – Fransa arasında hərbi əməkdaşlıqla bağlı praktiki addımlar 2023 – cü ildə atılmağa başladı. Belə ki, 2023 – cü ilin aprelində regiona səfəri çərçivəsində Ermənistanda olan Fransanın xarici işlər naziri Ketrin Kolonna ölkəsinin Ermənistandakı səfirliyində hərbi attaşe vəzifəsinin yaradılacağını bildirdi. Fransa xarici işlər nazirinin bu açıqlamasını bəzi fransız media orqanları rəsmi Parisin Ermənistana silah satışına hazırlıq kimi dəyərləndirdi[2]. Onu da xatırladaq ki, son dövrlərə qədər Parisin Ermənistanla hərbi əlaqələrini Fransanın Gürcüstandakı səfirliyinin hərbi attaşesi həyata keçirib. Bir məqamı da qeyd edək ki, Fransanın Ermənistandakı səfirliyində hərbi attaşe vəzifəsinin yaradılması məsələsi ilk dəfə Ermənistan müdafiə nazirinin 2022 – ci ilin sentyabrında Parisə səfərində müzakirə edilib[3]. Daha sonra, 2023 – cü ilin iyununda Ermənistanın müdafiə naziri Suren Papikyan fransız həmkarının dəvəti ilə Parisdə işgüzar səfərdə olmuşdur. Fransa müdafiə naziri Sebastyan Lekornu ilə görüşdə S.Papikyan qarşı tərəflə bu məsələləri müzakirə etmişdir : a) müdafiə sahəsində Ermənistan-Fransa əməkdaşlığı b) regional təhlükəsizliklə bağlı məsələlər c) 2022-ci il sentyabrın 27-də Parisdə keçirilən görüşdə əldə olunmuş razılaşmaların həyata keçirilməsi[4]. 2023 – cü ilin oktyabrının əvvəllərində İrəvana növbəti səfərini edən Fransa xarici işlər naziri K.Kalonna ölkəsinin Ermənistana silah satışı həyata keçirəcəyini, hərbi təchizat

---

[1] https://www.mfa.am/en/bilateral-relations/fr

[2] https://www.intelligenceonline.com/government-intelligence/2023/04/24/french-military-diplomacy-treads-carefully-in-south-caucasus,109947997-art

[3] https://caliber.az/en/post/165034/

[4] https://jam-news.net/visit-of-the-minister-of-defense-of-armenia-to-france/

göndərəcəyini bəyan etdi[5]. K.Kalonna Fransanı Ermənistanı silahlandırmaqda məqsədinin bu ölkənin müdafiə qabilliyyətini yüksəltmək olduğunu bildirib. Nəhayət, ötən il iki ölkə arasında baş verən intensiv diplomatik təmasların, hərbi – siyasi proseslərin nəticəsində 2023 – cü ilin oktyabrın 23 – də, Parisdə, Ermənistan müdafiə naziri S.Papikyan və Fransa müdafiə naziri S.Lekornu arasında hərbi əməkdaşlıqla bağlı saziş imzalandı. İmzalanan sazişə görə Ermənistana Fransanın "Thales" müdafiə qrupundan üç "Ground Master 200" (GM200) radar sistemi, Bastion çoxfunksiyalı zirehli avtomobilləri və eləcə də digər növ hərbi texnika və sursatların verilməsi nəzərdə tutulmuşdur. Onu da qeyd edək ki, bu saziş Ermənistanın Qərb ölkələrindən biri ilə imzaladığı ilk belə müqavilədir. Hələ saziş imzalanmamışdan əvvəl Fransa müdafiə naziri S.Lekorno bildirib ki, "*Ermənistana imkan verilməlidir ki, öz mülki əhalisini qorusun, sərhədlərinin mühafizəsini təmin etsin. Oktyabrın 23-də Ermənistanın fransız istehsalçılarından müəyyən miqdarda silah almasını rəsmiləşdirəcəyik*"[6]. *Və son olaraq, Fransanın müdafiə naziri S.Lekornunun İrəvana ilk səfəri çərçivəsində fevralın 23 – də Ermənistan müdafiə naziri ilə hərbi əməkdaşlıqla bağlı yeni saziş imzalandı. Bu saziş, Ermənistanın Fransadan yeni silahların alınmasını, erməni ordusunda fransız hərbiçilərin təlimlər keçirməsini və digər əməkdaşlıq məsələlərini ehtiva edir. S.Lekornu erməni həmkarı ilə birgə keçirdiyi mətbuat konfransında bildirmişdir ki, Fransa Ermənistana kiçik, orta və uzaq məqafəli raketlər verməyə hazırdır*[7]*. Eyni zamanda, Fransa ilə hərbi sahədə əməkdaşlığa toxunan S.Papikyan bəyan etmişdir ki, bu əməkdaşlıq müdafiə sektorunda bütün sahələri əhatə edir*[8].

*Fransa – Ermənistan hərbi əlaqələrində ziddiyyət yaradan vacib məqamlardan biri İrəvanın təhlükəsizlik siyasəti ilə bağlıdır. Belə ki, Ermənistan ikitərəfli və çoxtərəfli müstəvidə (KTMT) Rusiya ilə dərin əlaqələrini, müttəfiqlik münasibətlərini davam etdirməklə yanaşı Moskvanın sərt geosiyasi qarşıdurma vəziyyətində olduğu Fransa ilə də hərbi – təhlükəsizlik əlaqələrini inkişaf etdirir. Erməni rəsmilərinin müəyyən anti – Rusiya, KTMT ritorikasına, kosmetik addımlarına baxmayaraq Ermənistan Rusiya ilə təhlükəsizlik – müdafiə sahəsində imzaladığı uzunmüddətli müqavilələrdən hələ ki, imtina etməyib, KTMT – dən çıxmayıb. Bütün bunlarla bərabər, Rusiyanın Ermənistandakı (Gümrüdə) 102 – ci hərbi bazası mövcudluğunu davam etdirir, Ermənistanın Türkiyə və İranla sərhədlərini rus sərhədçiləri qoruyur. Burada onu da qeyd edək ki, İrəvan və Paris arasında son silah sövdələşmələrinin əhəmiyyətli hissəsini Ermənistanın Fransadan hava hücumundan müdafiə sistemləri alması təşkil edir. Halbuki, Ermənistan və Rusiya eyni hava hücumundan müdafiə sisteminə malikdirlər. Ermənistan Fransa ilə hərbi əlaqələrini inkişaf etdirməyi özünün silah idxalını diversifikasiya etmək məqsədi ilə həyata keçirdiyini bəyan etsə də bu ölkə*

---

5 https://www.euronews.com/2023/10/04/french-foreign-minister-pledges-arms-for-armenia-in-visit-to-yerevan

6 https://news.am/rus/news/788225.html

7 https://caucasuswatch.de/en/news/france-commits-military-aid-to-armenia-offers-advanced-air-defense-systems.html

8 https://lurer.com/?p=557553&l=en

*ətrafında yaranmış və əvvəldə də qeyd etdiyimiz ziddiyyətli təhlükəsizlik, geosiyasi mənzərəni dəyişmir.*
*Rəsmi İrəvan və Paris iki ölkə arasında hərbi əməkdaşlığın erməni ordusunun müdafiə qabiliyyətini artırmaq məqsədi ilə edildiyini və bu əməkdaşlığın üçüncü ölkələrə qarşı olmadığını iddia etsə də Fransa tərəfindən Ermənistanın silahlandırılmasının mümkün səbəblərinə nəzər saldıqda fərqli qənaətə gəlmək olar. Ermənistan – Fransa hərbi – siyasi tərəfdaşlığının yeni mərhələyə daxil olmasının əsas səbəblərindən biri Fransanın regional (Cənubi Qafqaz) geosiyasi maraqları ilə bağlıdır. Əvvəla, onu qeyd edək ki,* Fransanın regional geostrategiyasında Cənubi Qafqazın əhəmiyyətini artıran əsas məqamları belə sıralamaq olar: regionun geosiyasi mövqeyi (Şərqlə Qərb arasında körpü rolunu oynaması, Mərkəzi Asiyaya çıxış, ənənəvi rəqiblər olan Rusiya, Türkiyə və İran arasında yerləşməsi, Orta Şərq regionuna yaxınlığı), zəngin enerji resurslarına malik olması və s. Və belə bir vacib regionda Fransa mövqeyini, təsir imkanlarını gücləndirmək üçün Ermənistanı əsas vasitə olaraq görür. İkinci Qarabağ Müharibəsindən sonra bölgədə formalaşan yeni geosiyasi reallıqlardan məmnun qalmayan və özünü "oyundan kənar" vəziyyətə düşmüş hesab edən Fransa məhz Ermənistan vasitəsilə bölgədə rolunu artırmağa çalışır. Eyni zamanda, Rusiya – Ukrayna müharibəsi başladıqdan sonra Paris Rusiyanın Cənubi Qafqazda təsirini azaltmaq məqsədi ilə Moskvanın regionda əsas hərbi – siyasi müttəfiqi olan Ermənistanı öz "orbitinə" çəkməyə çalışır və bu istiqamətdə ardıcıl addımlar atmaqdan çəkinmir. Fransanın regionda rəqib kimi baxdığı dövlətlər sırasında Türkiyə də var. Fransanın Ermənistanla münasibətlərini dərinləşdirməsinin əsas məqsədlərindən biri də Orta Şərqdə və digər regionlarda geostrateji maraqlarının toqquşduğu Türkiyənin Cənubi Qafqazda təsirini azaltmaqdır. Beləliklə, görünən odur ki, Ermənistanla münasibətləri müttəfiqlik səviyyəsinə çatdırmaqla Fransa bir tərəfdən Türkiyənin regionda təsirini azaltmağa çalışır, digər tərəfdən də İrəvanı tədricən Rusiyanın nüfuz dairəsindən uzaqlaşmağa təşviq edir. Bu məqsədlərinin reallaşmasında Fransanın istinad etdiyi məqamlardan biri Avropa İttifaqının bölgədə həyata keçirdiyi strategiyadır. İttifaqın "Şərq Tərəfdaşlığı" proqramı və digər layihələrlə region dövlətlərini "qoca qitəyə" yaxınlaşdırmaq siyasəti bu baxımdan Parisin bölgə ilə bağlı geostrateji maraqlarına cavab verir[9]. Burada toxunulmalı olan digər amil onunla bağlıdır ki, *son zamanlar Fransanın Orta Şərqdə, Afrikada mövqeyinin zəifləməsi də Parisin xarici siyasətində post – sovet məkanını, xüsusilə də Cənubi Qafqazı xeyli aktuallaşdırıb.*
*Fransanın Ermənistanı silahlandırmasını və bütövlükdə, Cənubi Qafqazda fəallaşmasını bəzi təhlilçilər "Faşoda sindromu" ilə də əlaqələndirirlər[10]. Daha dəqiq desək, onların fikrincə, Fransa Böyük Britaniyaya qarşı tarixi geosiyasi rəqabətini Cənubi Qafqazda da davam etdirir və hər iki ölkənin eyni hərbi – siyasi blokda (NATO)*

[9] https://aircenter.az/uploads/files/lobbi.pdf
[10] https://www.geopoliticalmonitor.com/what-are-frances-motives-in-the-south-caucasus/

*təmsil olunması Parisin geosiyasi iddialarına mane olmur. Fransa Böyük Britaniyanın Cənubi Qafqazda enerji, geostrateji maraqlarının və təsir imkanlarının olmasından məmnun deyil və bu səbəbdən də Ermənistan vasitəsilə regionda təsirini artırmağa çalışır.*

*Parisin Ermənistan mərkəzli Cənubi Qafqaz siyasətinin formalaşmasında geosiyasi amillərlə yanaşı Fransada mövcud olan güclü erməni diasporu faktoru da böyük rol oynayıb və oynamaqda da davam edir. Ölkənin siyasi, elmi, iqtisadi, mədəni, inzibati sektorlarında şəbəkələşmiş erməni diasporu və lobbi qruplarının Fransanın Cənubi Qafqaz siyasəti, Türkiyə ilə münasibətləri üzərində ciddi təsir imkanlarının olması inkarolunmaz faktdır. Bu baxımdan, d*ünyada üçüncü, Avropada birinci ən böyük erməni diasporunun yaşadığı (təxminən 500 mindən artıq) Fransada erməni lobbiçiliyinin həm ictimai rəyə, həm də Parisin xarici siyasətinə ciddi təsir imkanları olduğunu nəzərə alsaq Fransanın regionla bağlı ziddiyyətli siyasətinin səbəblərini daha aydın dərk etmiş olarıq.

Beləliklə, son illərdə, aylarda baş verən proseslər o qənaətə gəlməyə əsas verir ki, Fransa özünün geostrateji maraqları səbəbindən və daxilindəki erməni diaspor, lobbi qruplarının təsiri ilə Ermənistanı silahlandırmaqda, bu ölkə ilə hərbi – siyasi əlaqələrini müttəfiqlik səviyyəsinə qaldırmaqda qərarlı olduğunu nümayiş etdirir. Fikrimcə, Ermənistan – Fransa hərbi – siyasi tərəfdaşlığı iki əsas səbəbdən Cənubi Qafqazın təhlükəsizlik mühitinə mənfi təsir edir. Birincisi, Ermənistan və Azərbaycan arasında hələ də sülh müqaviləsi imzalanmayıb və bütövlükdə, münaqişə bitsə də iki ölkə arasında ciddi problemlərin qalması səbəbindən davamlı sülh əldə olunmayıb. Otuz ilə yaxın dövr ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayaraq təcavüzkar siyasət həyata keçirən və hələ də daxili qanunvericilik sənədləri ilə Azərbaycana qarşı ərazi iddialarını davam etdirən bir ölkəni silahlandırmaq yenidən erməni siyasi elitasında, cəmiyyətində revanşist meyilləri, işğalçılıq istəklərini gücləndirə bilər. Nəticədə, Ermənistan və Azərbaycan arasında sülhün əldə olunması üçün imkanların yarandığı vaxtda Fransanın Ermənistanı silahlandırması regionda hərbi – siyasi eskalasiyanı artırır. Həmçinin, görünən odur ki, Ermənistan Qərblə yaxınlaşma siyasətindən də (vaxtı ilə Rusiya ilə olduğu kimi) Azərbaycana qarşı istifadə etməyə çalışır. İkincisi, son illərdə kəskinləşən Rusiya – Qərb münasibətləri fonunda Ermənistanın Qərbə doğru reveransları, Fransa da daxil olmaqla bəzi aparıcı Qərb dövlətlərinin Ermənistandan Rusiyaya qarşı istifadə cəhdlərinin Cənubi Qafqazı yeni geosiyasi qarşıdurma meydanına çevirmək potensialı böyükdür. İndiki mərhələdə Ermənistanın qüvvələr balansı (balance of power) siyasətini tədricən Rusiyaya qarşı çevirməsi regionda xaotik geosiyasi proseslərin getməsinə səbəb olar ki, bu da nəticədə, Cənubi Qafqazın təhlükəsizlik sistemi üçün ciddi fəsadlar yarada bilər.

**Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində aparıcı məsləhətçi**